# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2025.1.37

UOT: 82-09

**Kamandar Şərifov**
*filologiya elmləri doktoru, professor*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: sherifov41@mail.ru*

## ŞİRVANİ ƏSƏRLƏRİNİN AZƏRBAYCANDA YAYILMA COĞRAFİYASI

**Xülasə**

XVI-XVII yüzillikdə yayılma coğrafiyası yaşamış görkəmli Azərbaycan alimi Məhəmməd Əmin Sədrəddin oğlu Şirvani Mollazadə (Molla oğlu) (ö. 1036/1627) İstambulda yaşayıb-yaratsa da onun zəngin elmi irsini əhatə edən əlyazma abidələri Vətənimizin demək olar ki, bütün bölgələrində, eləcə də Dağıstanda və vaxtilə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olmuş Tiflisdə geniş coğrafi ərazidə yayılmışdır. Alimin əsərlərinin Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalarının tədqiqata cəlb olunması onun elmi irsinin araşdırılması ilə yanaşı, keçmiş yüzilliklərdə ölkəmizdə maarifin və kitab mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş mədrəsələrin və kitabxanaların, dövrünün qabaqcıl ziyalılarının və kitabşünaslarının öyrənilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

***Açar sözlər:*** *əlyazma abidələri, coğrafi ərazi, mədrəsə, maarif*

**Giriş**

*XVI-XVII yüzilliyin görkəmli Azərbaycan alimi Məhəmməd Əmin Sədrəddin oğlu Şirvani Mollazadə (Molla oğlu) (ö.1036/1627) özündən sonra zəngin elmi irs qoyub getmişdir (1, s.208-209). Onun müxtəlif elm sahələrinə həsr edilmiş çoxsaylı əsərləri Şərqdə ayrı-ayrı mədəniyyət ocaqlarında nüsxədən-nüsxəyə köçürülərək geniş coğrafi ərazilərdə yayılmış və ayrı-ayrı alimlər tərəfindən tədqiq olunmuşdur. Onlara nümunə olaraq "əl-Fəvaid əl-Xaqaniyyə əl-Əhmədxaniyyə", "Haşiyə alə əl-mütəvval", "Tərcəmət əl-uməm", "Risalə fi məsələt əl-iman", "Risalə fi təhqiq əl-məbdə", "Risalə fil-hədis" və başqalarını göstərmək olar.*

Alim Türkiyədə yaşayıb-yaratsa da əsərlərinin əlyazmaları Azərbaycanda geniş yayılmışdır. Onun Azərbaycanda ən çox yayılmış və ayrı-ayrı bölgələrdəki kitabxana və mədrəsələrində üzü köçürülərək çoxaldılmış və tədris prosesinə cəlb edilmiş əsərlərindən biri "Şərh cihətil-vahdə" əsəridir. Alimin bu əsəri Şərqin görkəmli şəxsiyyətlərindən biri olan Şəmsəddin bin Həmzə bin Məhəmməd əl-Fənarinin (1350-1431) məşhur Azərbaycan filosofu Əsirəddin Mufaddal bin Ömər əl-Əbhərinin (ö.1265) "əl-İsaqoci fil-məntiq" traktatına yazdığı şərhin müqəddiməsinə həsr olunmuşdur [2, s.208]. Məhəmməd Əmin Şirvaninin bu əsəri ayrı-ayrı mədrəsələrdə məntiq elmi üzrə dərs vəsaiti kimi istifadə edildiyindən

Şərqdə geniş yayılmışdır. Əsər XIX yüzillikdə yalnız Türkiyədə üç dəfə nəşr olunmuşdur [3, s.208]. Azərbaycanın demək olar ki, bütüm bölgələrində, eləcə də Dağıstanda əsərin müxtəlif illərdə üzü köçürülmüş onlarla əlyazma nüsxələri vardır. Alimin bu əsərinin Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalarının tədqiqata cəlb olunması onun elmi irsinin araşdırılması ilə yanaşı keçmiş yüzilliklərdə ölkəmizdə maarifin və kitab mədəniyyətimizin inkişafında əvəzsiz xidmətləri olmuş mədrəsələrin və kitabxanaların, dövrünün qabaqcıl ziyalılarının və kitabşünaslarının öyrənilməsi baxımından olduqca vacib və əhəmiyyətlidir. Alimin bu əsərinin əlyazma nüsxələrinin ən çox yayıldığı bölgələrimizdən biri Şəkidir. XIX əsrdə yaşayıb-yaratmış görkəmli alim, pedaqoq və kitabşünas Şəmsəddin Əbdülqəni Nuxəvi Xalisəqarızadə (1817-1879) [4] və dövrünün ziyalılarından olan Hacı Musa Əfəndinin rəhbərliyi altında Mahmud bin Hacı Məhəmməd bin Hacı Əhməd tərəfindən Şəkidə köçürülərək, mədrəsələrdə tədris olunmuşdur [5, v. 24$^{b}$-46$^{b}$.]. Əsərin Şəkidə köçürülən nüsxələrindən biri də dövrünün alim və pedaqoqlarından olan, Əbdülqəni Nuxəvi Xalisəqarızadənin oğlu Abdulla Əfəndi Nuxəvi Xalisəqarızadənin və Musa bin hacı Məhəmməd Əfəndi Buminin xidmətində Məhəmməd Əli əl-Qıraxi əs-Suxi ibn Məhəmmədin qələminin məhsuludur [6, v. 189$^{b}$-222$^{b}$]. Məhəmməd Əli əl-Qıraxi də çox yəqin ki, Xaçmaz rayonundan Şəki mədrəsəsində təhsil alan tələbələrdən olmuşdur.

Əsərin daha bir nüsxəsi hicri 1216 (1801)-cı ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxıda dövrünün böyük ustadlarından olan Bayram Əfəndinin xidmətində Şamaxılı Əbdülqadir tərəfindən qələmə alınmışdır [7, v. 222$^{b}$]. Bu əlyazma toplusuna daxil edilmiş digər əsərin sonluğunda qeyd edilir ki, onu Şamaxılı Əbdülqadir bin Mahmud Əfəndi bin Əli Əfəndi Şamaxıda məşhur olan, əsrin yeganəsi mövlanə əl-Ərməndi Əbdüllətif Əfəndi bin Mustafa Əfəndi bin alicənab Əli Əfəndinin xidmətində köçürmüşdür [8, v. 104].

Məhəmməd Əmin Şirvaninin göstərilən əsəri Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik Qarabağ bölgəsində fəaliyyət göstərən mədrəsələrdə də çoxaldılaraq öyrənilmişdir. Əsərin nüsxələrindən biri Əbdülhəlim Əbdürrəhman Əfəndi bin Hacı Abdulla Əfəndi Qarabağinin mədrəsəsində köçürülmüşdür [9, v. 42$^{a}$-25$^{b}$]. Bu əlyazma toplusuna daxil edilmiş digər əsər isə Şamaxı mədrəsəsində qələmə alınmışdır [10, v. 174$^{a}$]. Əsərinin Qarabağda köçürülmüş daha bir nüsxəsi də vardır [11].

"Şərh cihətil-vahdə" əsərinin əlyazma nüsxələrindən biri də Zaqatala şəhərinin şimalında Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşən Car kəndində Ömər xan bin Nur əl-Cari tərəfindən qələmə alınmışdır [12, v. 60$^{b}$-89$^{b}$]. Kəndin XVI əsrə aid məscidi və həmin dövrə aid müdafiə məqsədilə tikilmiş, hündürlüyü 10-12 metr olan "Çingizqala abidəsi" vardır. Həmin əlyazma toplusuna daxil edilmiş Numan bin Şeyx Səid Şirvaninin "Haşiyə alə şərhi əl-İsağoci fil-məntiq" əsərinin sonluğunda qeyd edilir ki, əlyazma Ömər xan bin Nuri əl-İmaci əl-Carinin kitabxanasındandır [13, v. 158$^{a}$]. Deyilənlərdən görünür ki, bu kənd zəngin kitabxana və mədrəsələri fəaliyyət göstərən, maarifin inkişaf etdiyi bir bölgə olmuşdur.

Zaqatala rayonunun Ciş kəndində əsərin üzü köçürülmüş daha bir nüsxəsi zəmanəmizədək gəlib çatmışdır. Həmin nüsxə 1243 (1827/1828)-cü ildə məşhur alim Əbdülhəlim əl-Cişinin xidmətində Ömər əl-Qabjami tərəfindən köçürülmüşdür [14, v. 52$^{a}$ -79$^{a}$].

Məhəmməd Əmin Şirvaninin anadan olduğu yerin müəyyənləşdirilməsi baxımından onun "Şərh cihətil-vahdə" əsərinin 1294 (1877)-cü ildə köçürülmüş nüsxəsi olduqca dəyərlidir [15, v. 70$^{b}$-98$^{b}$]. Belə ki, indiyədək alimin harada anadan olduğu müəyyənləşdirilməmişdir. Onun əsərlərinə müraciət edən tədqiqatçılar onun Şirvanlı olduğunu yazmaqla kifayətlənmişlər. Alimin göstərilən əsərinin bu nüsxəsində verilmiş bilgiyə əsasən o, Nuxa vilayətinin Ağdaş bölgəsindəki Ocaqi (indiki Ərəbocağı) kəndində anadan olmuşdur [16, v. 98$^{b}$]. Bu əlyazma toplusuna daxil edilmiş və 1312 (1894/1895)-ci ildə köçürülmüş digər əsərin sonluğunda katibin Məhəmməd bin alim Qurban əl-Balakəni olduğu qeyd edilib [17, v. 36$^{a}$]. Məhəmməd bin alim Qurban Balakəninin kitabxanasından olan [18, v. 139$^{a}$] bu əlyazma kitabına daxil edilmiş başqa bir əsərin mətni 1303 (1885/1886)-cü ildə katib Yusif bin Ramazan İlisuyi

tərəfindən fəzilətli alim Qazi Şamil Əfəndi İlisuyinin mədrəsəsində köçürüldüyü qeyd edilmişdir [19, v. 136[a]]. Abidənin 1208 (1793)-ci ildə Xaçmaz rayonunda katib Mahmud bin Mehdi əl-Xaçmazi tərəfindən köçürülmüş nüsxəsi xüsusi maraq doğurur. Katib əsərin haşiyələrində və əlyazmaya əlavə edilmiş vərəqlərdə ayrı-ayrı müəlliflərin əsərlərindən verilmiş çıxarışlarla mətnə geniş şərh yazmaqla bu nüsxəni tədqiqat əsərinə çevirmişdir [20].

Ucar rayonunun Pirkəndi kəndində 1302 (1884-1885)-ci ildə traktatın başqa bir nüsxəsi katib Əbdülmütəllib bin Ömər əl-Qışlaqi tərəfindən alicənab hacı Cəbrail Əfəndi Pirkəndinin xidmətində köçürülmüşdür [21, v. 108[b]-136[b]]. Bu əlyazma toplusuna daxil edilmiş digər əsərin sonluğunda qeyd edilir ki, 1302 (1884/1885)-ci ildə Əbdülmütəllib bin Ömər əl-Qışlaqi traktatın mətnini alicənab Hacı Eyyub Əfəndi əl-Vəndaminin və ustad Kərani alicənab Osman Əfəndi əl-Vəndaminin xidmətində köçürmüşdür [22, v. 39[a]]. Adları çəkilən şəxslər vaxtilə Azərbaycanın göstərilən bölgələrində maarifin və kitabşünaslığın inkişafında əhəmiyyətli rol oynamış ziyalılardan olmuşlar.

"Şərh cihətil-vahdə" əsərinin mükəmməl nüsxələrindən biri də tarixi XIII əsrə çatan İlisu Sultanlığının (1563-1894) mərkəzi şəhəri olmuş, hazırda Qax rayonunun kəndlərindən olan İlisuda Nur Məhəmməd bin əl-Hac Rəsul Əfəndi İlisuyi tərəfindən köçürülmüşdür [22, v. 39[a]]. Əsərin başqa bir nüsxəsi də İlisuda Nur məhəmməd bin əl-Hac Rəsul Əfəndi İlisuyi tərəfindən köçürülmüşdür [23, v. 35[a]].

"Şərh cihtil-vahdə" traktatının daha üç əlyazmasından biri 1072 (1661/1882)-ci ildə Əhmədli kəndində Məqsud bin Mahmud [24, v. 132[b]-144[a]], digəri Cənubi Azərbaycanın Vəzirqan şəhəristanının Şeyx (Şeyxi) kəndində 1257 (1841)-ci ildə Nəsrulla əl-Qubeyri [25, v. 73[b]-96[a]], üçüncüsü isə 1312 (1894/1895)-ci ildə İlisuda Mamay bin Harun əl-İlisuyi tərəfindən köçürülmüşdür [26, v. 1[b]-26[b]]. Üçüncü topluya daxil edilmiş Məhəmməd bin əl-Hüseyn əl-Amilinin "Xülasətül-hesab" (vərəq 80b-123[a]) əsəri və mətnin qıraq hissələrində verilmiş haşiyələri 1267 (1850/1851)-ci ildə Dərbəndin Fiy kəndində fəzilətli alim Mahmud Əfəndi Fiyuvinin mədrəsəsində Prim tərəfindən köçürülmüşdür. Abidənin 80[a] vərəqində yazılır ki, bu əlyazma Mamay bin Harun əl-İlisuyinin kitbxanasındandır.

Məhəmməd Əmin Şirvaninin "Şərh cihətil-vahdə" əsəri vaxtilə Azərbaycanın ərazisi olmuş Dağıstanın müxtəlif bölgələrində də geniş yayılmış və ayrı-ayrı mədrəsələrdə çoxaldılaraq tədris edilmişdir. Həmin nüsxələrdən bir neçəsi Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılır. Həmin nüsxələrdən biri 1239 (1823/1824)-cu ildə Quruş kəndində katib Abbas tərəfindən köçürülmüşdür [27, v. 29[b]-63[a]]. Bu əlyazma toplusuna daxil edilmiş digər əsərin sonluğunda mətnin 1212 (1797/1798)-ci ildə Şamaxıda İsmayıl Məhəmməd oğlunun mövlanə Hüseyin Əfəndinin xidmətində köçürüldüyü qeyd edilmşdir [28, v. 28[b]]. Əsərin başqa bir nüsxəsi 1578-ci ildə Osmanlı İmperiyasının tərkibində Cənubi Qafqazda Şirvan əyalətinin sancağı, hazırda Dağıstanın rayonlarından biri olan Axtıda 1216 (1801/1802)-cı ildə Şaban Molla Nur Məhəmməd bin Molla Şaban bin Molla Rəcəb alim Bayram bin Əfəndi bin Molla Qurban əl-Qazi əl-Xaulinin mədrəsəsində köçürülmüşdür [29, v. 34[b]-56[b]].

Traktatın daha bir nüsxəsi 160 ilə yaxın Azərbaycanın İlisu Sultanlığının mərkəzi şəhəri, hazırda Dağıstanın Rutul rayonunun Saxur kəndində 1187 (1773)-ci ildə Ömər bin Məhəmməd tərəfindən mövlanə Əbdürrəhim əs-Saxurinin xidmətində köçürülmüşdür [30, v. 175[b]-189[a]]. Səlcuq İmperiyasının sultanı Məlikşahın vəziri Nizamilmülkün fərmanı ilə 1075-ci ildə Saxurda inşa edilmiş mədrəsə ilahiyyat və təbiət elmlərini tədris etməklə regionda insanların maariflənməsində və əlyazma kitab mədəniyyətinin inkişafında böyük rol oynamışdır [31].

"Şərh cihətil-vahdə" traktatına Şərqdə ayrı-ayrı alimlər tərəfindən şərh, haşiyə və təliqələr yazılmışdır. Onlara nümunə olaraq Şeyx Əbdüllətif bin Məhəmməd bin Danğan bin Həmzə əl-Haşari Dağıstaninin yazdığı böyük həcimli "Utur əl-yasəmin alə "cihət əl-vahdə" adlı şərhini göstərmək olar [32]. Şeyx əllamə Əbdürrəhman əl-hac əs-Suğurinin nəvəsi Şeyx Əli bin Abdullah əl-Hac əllamə əs-Suğuri əsərə ərəb dilində nəzmlə tərif – rəy yazmışdır. Daha sonra tatar xalqının məşhur tarixçi, arxeoloq və ilahiyyatçı alimi, 20-dən çox əsərin müəllifi Şihabəddin Harun bin Bəhaəddin bin Subhan bin

Əbdülkərim Mərcani Qazani (1818-1889) [33] 1303 (1885/1886)-cü ildə əsəri dərindən mütaliə etdiyini və nəfis bir əsər olduğunu müəyyən etmişdir. O, əsəri oxumaqla bərabər həm də təshih etdiyini yazır [34, v. 3[a]].

Məhəmməd Əmin Şirvaninin göstərilən əsərinə həsr olunmuş məşhur haşiyələrdən biri də tanınmış türk alimi Qara Xəlil bin Həsən bin Məhəmməd ət-Tirəviyə (ö.1123/1711) məxsusdur [35]. Onun "ər-Risalə əl-auniyyə fi idah əl-haşiyəti-sadriyyəti" adlanan əsəri hicri 1304 (1886/1887)-cü ildə Zaqatala rayonunun Danaçı kəndində fəzilətli alim Məhəmməd Əli əl-Carinin xidmətində Bəkir İlisuyi tərəfindən köçürülmüşdür [36, v. 83[a]].

"Şərh cihət əl-vahdə" şərhinə həsr olunmuş haşiyələrdən biri də Ömər əl-Cani əl-Kidalinin "Fəth əl-ğalib aləl-mübtədə ət-talib" adlanır. Bu haşiyəni 1303 (1885/1886)-cü ildə əslən Dağıstanın Saxur kəndindən olan, ancaq İlisuda yaşayan Yusif bin Ramazan fəzilətli alim qazi Şamil Əfəndi İlisuyinin mədrəsəsində müəllif nüsxəsindən köçürmüşdür [37, v. 101[a]-136[a]]. Əlyazmada qeyd edilir ki, bu nüsxə Yusif bin Ramazan İlisuyinin kitabxanasından Abdulla bin əl-Hac Şaban əl-Balakəni əl-Bəknəvinin kitabxanasına, oradan da 1313 (1895/1896)-cü ildə Məhəmməd bin alim Qurban Balakəninin kitabxanasına daxil olmuşdur [38, v. 101[a]].

Mənbələrin verdiyi məlumata görə "Cihət əl-vahdə" traktatına ilk şərh yazan Əbdürrəhim Şirvani (1024/1615), ondan sonra isə Məhəmməd Əmin Şirvani olmuşdur. Onların arasında müəllim tələbə münasibətləri olduğu da qeyd edilir [39, I, s.259].

Abdurrəhim Şirvani və Məhəmməd Əmin Şirvanidən başqa Zeynəddin Bərədosti, Dəbbəğzadə Mustafa Sidqi, Əskiçizadə (1827), İbrahim Gözüböyükzadə (1838) və müəllifi məlum olmayan başqaları da "Cihət əl-vahdə"yə şərh, haşiyə və təliqələr yazmışlar. Məhəmməd Əmin Üsküdari (ö.1117/1705) və İsmayıl Kələnbavinin də "Cihət əl-vahdə"yə haşiyələri olduğu deyilir. Zeynəddn əl-Bərədustinin "Təliqət alə şərh cihətil-vahdə" əsərinin Əlyazmalar İnstitutunda iki nüsxəsi saxlanılır. Bu təliqənin biri 1160 (1747)-cı ildə Tiflisdə Xəlil əl-Müdərrisin mədrəsəsində Səd bin Əli bin Əhməd bin Əli [40, v. 62[b]-67[a]], digəri isə əl-İbad Əhməd tərəfindən 1206 (1792)-cı ildə köçürülmüşdür [41, v. 21[a]-25[b]]. İkinci nüsxəyə daxil edilmiş digər əsərin sonluğunda mətnin Əbdürrəzzaq bin Abdulla ət-Tahiri tərəfindən fəzilətli alim Əmir Məhəmməd əl-Qıbçaqinin mədrəsəsində köçürüdüyü qeyd edilir [42, v. 73[b]].

Məhəmməd Əmin Şirvaninin göstərilən əsərinin Əlyazmalar İnstitutunda köçürülmə tarixi və yeri göstərilməmiş daha 11 nüsxəsi mühafizə olunur.

Alimin Əlyazmalar İnstitutunda mühafizə edilən əsərlərindən biri də "Muxtəsər fi bəyan məqalət əhlil-aləm vəl-məzahib əl-müxtəlifə li təvaifil-uməm" adlanır [43]. Həm də qısa "Tərcəmət əl-uməm" adlanan [44, 39, s. 208] bu əsər ərəbcə müqəddimədən sonra türkcə yazılmışdır. Orada müxtəlif etiqadlı məzhəblər araşdırılır. Onun ayrı-ayrı Quran surə və ayələrinə həsr edilmiş təfsirləri də vardır. Bu qəbildən olan əsərlərindən biri də Nasirəddin Əbi Səid Abdullah bin Ömər əl-Beyzavinin "Ənvar ət-tənzil və əsrar ət-təvil" təfsirinə yazdığı haşiyədir [45]. Bu haşiyənin Əlyazmalar İnstitutnda saxlanılan nüsxəsində belə bir qeyd var: "Bu kitabı Məhəmməd Əfəndi Oxudi 1303 (1885/1886)-cü il rəcəb ayının əvvəlində Hacı Tapdıq ibn Şeyx Hacı Əli Əfəndi əl-Almalının vasitəsilə Bəlya ibn əş-Şeyx Əbdülkərim Nuxəvidən bir manata almışdır" [46].

## Nəticə

*Beləliklə, Məhəmməd Əmin Şirvaninin "Şərh cihətil-vahdə" traktatının əlyazmaları Şəki və onun Oxud, Dəhnə və Qışlaq, Qəbələ rayonunun Bum və Vəndam, Zaqatalanın Car, Ciş və Danaçı kəndlərində, Saatlı rayonunun Qıraqlı, Ağdaşın Ərəb Ocağı kəndlərində, Qax rayonunun Almalı və İlisu kəndlərində, Ucar rayonunun Pirkəndi kəndində, Bakının Əhmədli kəndində, Xaçmaz, Şamaxı, Balakən rayonlarında, Qarabağ bölgəsində, eləcə də başqa rayonlarda, Tiflis şəhərində, Cənubi Azərbaycanın*

*Şeyxi kəndində, Dağıstanın Quruş, Axtı, Saxur kəndlərində fəaliyyət göstərən mədrəsə və kitabxanalarda çoxaldılaraq, geniş coğrafi ərazidə yayılmışdır.*

**Ədəbiyyat siyahısı:**

1. İslam ansiklopedisi. 39 c. İstanbul 2010, səh.208-209; Yusif Bey Vezirov. Azerbaycan edebiyatına bir nazar. İstanbul, 1337, səh.86; Muhammed Emin bin Sadruddin eş-Şirvaninin hayatı, ilmi kişiliği ve eserleri. MÜLFD. Sy. 13-15 (1997), s. 211-225; K.Şərifov. Məhəmməd Əmin Şirvani. – Aida İmanquliyevanın 70 illik yubileyinə həsr edilmiş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2009, s.108-110; И.Ю.Крачковский. Избранные сочинения. IV т. М-Л., 1957, стр. 608-846.
2. İslam anciklopedisi. 39 c. İstanbul, 2010, səh. 208; مصطفى بن عبدالله الشهير بحاجى خليفة و بكاتب جلبى. كشف الظنون عن اسامى الكتب و الفنون. جلد اول. بيروت، ص. ٢٠٧.
3. İslam anciklopedisi. 39 c. İstanbul, 2010, səh. 208.
4. Bax: Kamandar Şərifli. Alim, pedaqoq və kitabşünas. Bakı, 2007.
5. Əlyazma toplusu, B-7472, vərəq 24b-46b. محمد امين الشروانى. شرح جهة الوحدة.
6. Əlyazma toplusu, B-2345, vərəq 189b-222b محمد امين الشروانى. شرح جهة الوحدة.
7. Əlyazma toplusu, B-7070, vərəq 222b. محمد امين الشروانى. شرح جهة الوحدة.
8. Əlyazma toplusu, B-7070, vərəq 104. محمد امين الشروانى. شرح جهة الوحدة.
9. Əlyazma toplusu, B-4024, vərəq 42a-25b. محمد امين الشروانى. شرح جهة الوحدة.
10. Əlyazma toplusu, B-4024, vərəq 174a. محمد امين الشروانى. شرح جهة الوحدة.
11. Əlyazma toplusu, C-914. محمد امين الشروانى. شرح جهة الوحدة.
12. Əlyazma toplusu, B-457, vərəq 60b-89b. محمد امين الشروانى. شرح جهة الوحدة.
13. Əlyazma toplusu, B-457, vərəq 158a. نعمان بن شيخ سعيد الشروانى. حاشية على شرح ايساغوجى في المنطق.
14. Əlyazma toplusu, B-3532, vərəq 52a -79a. محمد امين الشروانى. شرح جهة الوحدة.
15. Əlyazma toplusu, B-4709, vərəq 70b-98b. محمد امين الشروانى. شرح جهة الوحدة.
16. Əlyazma toplusu, B-4709, vərəq 98b. محمد امين الشروانى. شرح جهة الوحدة.
17. Əlyazma toplusu, B-4709, vərəq 36a. محمد امين الشروانى. شرح جهة الوحدة.
18. Əlyazma toplusu, B-4709, vərəq 139a. محمد امين الشروانى. شرح جهة الوحدة.
19. Əlyazma toplusu, B-4709, vərəq 136a. محمد امين الشروانى. شرح جهة الوحدة.
20. Əlyazma toplusu, B-1208. محمد امين الشروانى. شرح جهة الوحدة.
21. Əlyazma toplusu, B-5486, vərəq 108b -136b. محمد امين الشروانى. شرح جهة الوحدة.
22. Əlyazma toplusu, B-5486, vərəq 39a.
23. Əlyazma toplusu, B-6033, vərəq 35a. محمد امين الشروانى. شرح جهة الوحدة.
24. Əlyazma toplusu, B-79, vərəq 132b-144a. محمد امين الشروانى. شرح جهة الوحدة.
25. Əlyazma toplusu, B-1907, vərəq 73b-96a. محمد امين الشروانى. شرح جهة الوحدة.
26. Əlyazma toplusu, B-3121, vərəq 1b-26b. محمد امين الشروانى. شرح جهة الوحدة.
27. Əlyazma toplusu, B-3173, vərəq 29b-63a. محمد امين الشروانى. شرح جهة الوحدة.
28. Əlyazma toplusu, B-3173, vərəq 28b. محمد امين الشروانى. شرح جهة الوحدة.
29. Əlyazma toplusu, B-1912, vərəq 34b-56b. محمد امين الشروانى. شرح جهة الوحدة.
30. Əlyazma toplusu, B-4266, vərəq 175b-189a. محمد امين الشروانى. شرح جهة الوحدة.
31. Wikimedia.az-az.nina.az/saxur.html.

32. Əlyazma kitabı, B-3611. الشيخ عبداللطيف بن محمد بن دنغن بن حمزه العثرى الداغستانى. عطور الياسمين على جهة الوحدة لمحمد امين الشروانى.
33. Вах: Рол Шагабуддина Марджани в развитии татарской богословской мысли XIX века. Казань, 2010.
34. Əlyazma kitabı, B-3611, vərəq $3^{a}$.
35. Əlyazma kitabı, B-6154. قرة خليل بن حسين بن محمد التيروى. الرسالة العونية فى ايضاح الحاشية الصدرية.
36. Əlyazma kitabı, B-6154, vərəq $83^{a}$.
37. Əlyazma kitabı, B-4709, vərəq $101^{a}$-$136^{a}$. عمر الجانى الكدالى. فتح الغالب على المبتدأً الطالب.
38. Əlyazma toplusu, B-4709, vərəq $101^{a}$.
39. Bursalı Mehmed Tahir Efendi. Osmanlı muellifleri. I c. Bayazit-İstanbul, səh.259.
40. Əlyazma toplusu, B-4337, vərəq $62^{b}$-$67^{a}$ . زين الدين البرادوستى. تعليقات على شرح جهة الوحدة.
41. Əlyazma toplusu, B-2354, vərəq $21^{a}$-$25^{b}$ . زين الدين البرادوستى. تعليقات على شرح جهة الوحدة.
42. Əlyazma toplusu, B-2354, vərəq $73^{b}$ .
43. Əlyazma toplusu, B-2923, محمد امين الشروانى. مختصر في بيان مقالات اهل العلم والمذاهب المختلفة لطوائف الامم.
44. İslam ansiklopedisi. 39 c. İstanbul, 2010, səh.208; Karabulut A.R., Karabulut A.T. Dünya kütüphanelerinde mevcut islam kültür tarihi ile ilgili eserler ansiklopedisi. 5 c., 8786, səh.3341.
45. Əlyazma kitabı, B-8015. محمد امين الشروانى. حاشية على تفسير البيضاوى.
46. Əlyazma kitabı, B-8015. محمد امين الشروانى. حاشية على تفسير البيضاوى.

**Kamandar Sharifov**

## Geographic range of Shirvani's works in Azerbaijan

***Summary***

İn spite of the fact that outstanding Azerbaijani scholar Muhammad Amin Sadraddin Shirvani Mollazadeh (Molla) (died 1036/1627) living in the XVI-XVII centuries, created in Istanbul, but manuscripts covering his rich scientific heritage have wide geographic range almost in all regions of our Motherland including Dagestan and once one the cultural centres of Azerbaijan – Tbilisi. Our main aim in the research of the scholar's works kept at the Institute of Manuscripts is not only investigating his scientific heritage, but also studying of madrasas (schools) and libraries, educators, intelectuals and bibliologists having invaluable services in the development of education and book culture in our country in the past centuries.

***Key words:*** *manuscript monuments, geographic range, madrasa, education*

*Fəlsəfə üzrə elmlər doktoru, dosent* ***Zəkiyyə Əbilova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*